AZƏRBAYCAN CÜDO FEDERASİYASININ NİZAM İNTİZAM KOMİTƏSİNİN QƏRARLARININ REYESTRİ



VERSİYA: 18.11.2026

Azərbaycan Cüdo Federasiyasının Nizam İntizam Komitəsinin qərarlarının reyestri

Protokol N	Adı və soyadı	Vəzifəsi	İdman Təşkilatı	Qərar	Başlama tarixi	Bitmə Tarixi
2025						
03	Məhəmməd Xudiyev	Məşqçi	13 UGİM	ACF Nizam İntizam Komitəsinin 28 fevral 2025-ci il tarixli, 3 saylı protokoluna əsasən, 28 fevral 2025-ci il tarixindən etibarən 2 (iki) il müddətinə ACF- in təşkil etdiyi bütün yarışlarda məşqçi və rəsmi şəxs kimi iştirakına, milli komandaların beynəlxalq yarışlarında və beynəlxalq təlim məşq toplanışlarında nümayəndə heyətinin tərkibində iştirakına, milli komandaların daxili təlim məşq toplanışlarında və ümumiyyətlə milli komandaların məşqində iştirakına qadağa qoyulsun.	28.02.2025	27.02.2027
04	Həsən Əkbərli	Məşqçi	Arifoğlu İdman Klubu	ACF Nizam İntizam Komitəsinin 17 mart 2025-ci il tarixli, 4 saylı protokoluna əsasən, 17 mart 2025-ci il tarixindən etibarən 2 (iki) il müddətinə ACF- in təşkil etdiyi bütün yarışlarda məşqçi və rəsmi şəxs kimi iştirakına, milli komandaların beynəlxalq yarışlarında və beynəlxalq təlim məşq toplanışlarında nümayəndə heyətinin tərkibində iştirakına, milli komandaların daxili təlim məşq toplanışlarında və ümumiyyətlə milli komandaların məşqində iştirakına qadağa qoyulsun.	17.03.2025	16.03.2027
18	Tağıyev Mehdi	İdmançı	Çevik İk	ACF Nizam İntizam Komitəsinin 18 noyabr 2025-ci il tarixli, 18 saylı protokoluna əsasən, 16 noyabr 2025-ci il tarixindən etibarən 1 (bir) il müddətində ACF-in təşkil etdiyi bütün yarışlarda, milli komandaların məşqində, milli komandaların beynəlxalq yarışlarında və beynəlxalq təlim məşq toplanışlarında iştirakına qadağa qoyulsun.	18.11.2025	18.11.2026
2026						
02			“Sumqayıt Olimpiya İdman Klubu” MMC	ACF Nizam İntizam Komitəsinin 25 fevral 2026-cı il tarixli, 2 saylı protokoluna əsasən, "02 fevral-Gənclər Günü" nə həsr olunmuş cüdo idman növü üzrə 2009-2011; 2012-2013-cü il təvəllüdlü oğlanlar və qızlar; 2014-2015; 2016-2017-ci il təvəllüdlü oğlanlar arasında Sumqayıt Olimpiya İdman Klubu MMC-nin açıq turniri"nin Əsasnamənin “PROQRAM” və “TƏHLÜKƏSİZLİK XİDMƏTLƏRİ” bölmələrindəki öhdəliklərin yerinə yetirilməməsinə görə, “XÜSUSİ QEYDLƏR” bölməsində Federasiyaya verilmiş səlahiyyətə əsasən, “Sumqayıt Olimpiya İdman Klubu” MMC-yə 30.01.2026-cı il tarixindən etibarən 1 (bir) il müddətinə hər hansı yarış və ya tədbirin keçirilməsi qadağan edilsin.	30.01.2026	30.01.2027
05	Fərid Allahverdiyev	Məşqçi	ABBA İdman Klubu	ACF Nizam İntizam Komitəsinin 19 mart 2026-cı il tarixli, 5 saylı protokoluna əsasən, 1. Hakimlərin qərarına kəskin etiraz etməsi, baş hakimi təhqir edərək fiziki təmas tətbiq etməsi və cüdonun etik davranış qaydalarını kobud şəkildə pozması səbəbi ilə “ABBA” İdman Klubunun məşqçisi Fərid Allahverdiyevə 15.03.2026-cı il tarixindən etibarən 2 (iki) il müddətinə, Azərbaycan Cüdo Federasiyasının (ACF) təşkil etdiyi bütün yarışlarda və təhsil tədbirlərində iştirakına, milli komandaların məşqlərində, beynəlxalq yarışlarında və beynəlxalq təlim-məşq toplanışlarında iştirakına qadağa qoyulsun. 2. Federasiya ilə 27–29 mart 2026-cı il tarixlərində keçirilməsi razılaşdırılmış yarışın əsasnaməsinə verilmiş təsdiq geri götürülsün və həmin yarışın keçirilməsinə imtina verilsin. 3. 22 yanvar 2026-cı il tarixli mülki məsuliyyət müqaviləsinə əsasən müvəqqəti istifadəyə verilmiş tatamilər dərhal geri götürülsün.	15.03.2026	15.03.2028
09	Samir Cabbarov	məşqçi	Hövsan İdman Klubu	ACF Nizam İntizam Komitəsinin 23 iyun 2026-cı il tarixli, 9 saylı protokoluna əsasən, 1. Samir Cabbarova 1 (bir) il müddətinə yarış və digər idman tədbirlərinin təşkil edilməsi və keçirilməsi qadağan edilsin. 2. “Hövsan” İdman Klubunun lisenziyası 6 (altı) ay müddətinə dondurulsun və klubun həmin müddət ərzində daxili yarışlarda iştirakına məhdudiyyət tətbiq edilsin. 3. Samir Cabbarov 6 (altı) ay müddətinə Azərbaycan Cüdo Federasiyasının (ACF) təşkil etdiyi bütün yarışlardan və təhsil tədbirlərindən uzaqlaşdırılsın. 4. “Hövsan” İdman Klubunun idmançılarının yarış təcrübəsindən və turnirlərdən kənarda qalmaması məqsədilə, onların istisna qaydada Azərbaycan Cüdo Federasiyasının adından daxili yarışlarda iştirakına icazə verilsin. 5. Həmin idmançıların bu müddət ərzində yarışlarda qazandıqları reytinq xalları, nəticələr və mükafatlar “Hövsan” İdman Klubunun və məşqçi Samir Cabbarovun hesabına yazılmasın (aktivinə daxil edilməsin).	23.06.2026	23.06.2027
10	Əmrah Səlimli	Məşqçi	Hajime Judo Club	ACF Nizam İntizam Komitəsinin 26 iyun 2026-cı il tarixli, 10 saylı protokoluna əsasən 1. Əmrah Səlimlinin Azərbaycan Cüdo Federasiyasının (ACF) təşkil etdiyi bütün yarışlarda və təhsil tədbirlərində iştirakına 1 (bir) il müddətinə qadağa qoyulsun. 2. “Hajime Judo Club”un Azərbaycan Cüdo Federasiyasının təşkil etdiyi bütün yarışlarda və təhsil tədbirlərində klub olaraq iştirakına 1 (bir) il müddətinə qadağa qoyulsun. 3. Klub idmançılarının yarış təcrübəsindən kənarda qalmaması məqsədilə, onların istisna qaydada Azərbaycan Cüdo Federasiyasının adından daxili yarışlarda iştirakına icazə verilsin. 4. Həmin idmançıların bu müddət ərzində yarışlarda qazandıqları reytinq xalları, nəticələr və mükafatlar “Hajime Judo Club”un və məşqçi Əmrah Səlimlinin hesabına yazılmasın (aktivinə daxil edilməsin).	26.06.2026	26.06.2027
11	Fariz Qəhrəmanov	Məşqçi	Abbasov Top Team	ACF Nizam İntizam Komitəsinin 27 iyun 2026-cı il tarixli, 11 saylı protokoluna əsasən 1. Fariz Qəhrəmanovun Azərbaycan Cüdo Federasiyasının (ACF) təşkil etdiyi bütün yarışlarda və təhsil tədbirlərində iştirakına 1 (bir) il müddətinə qadağa qoyulsun. 2. Məhdudiyyət müddətində idmançıların yarışlarda qazandıqları reytinq xalları və mükafatlar məşqçi Fariz Qəhrəmanovun hesabına yazılmasın (aktivinə daxil edilməsin). 3. Fariz Qəhrəmanovun idmançılarının yarışlarda iştirakına məhdudiyyət tətbiq edilməsin. 4. İdmançıların yarış sifarişlərində məşqçi kimi Fariz Qəhrəmanovun, klub kimi isə “Abbasov Top Team”in adı göstərilə bilər və idmançılar həmin klubun adından yarışlarda iştiraklarını davam etdirə bilərlər.	27.06.2026	27.06.2027
14	Zakir Rəhimov	Məşqçi	Rəhimoğlu Cüdo idman klubu	ACF Nizam İntizam Komitəsinin 7 sentyabr 2026-cı il tarixli, 14 saylı protokoluna əsasən 1. “Rəhimoğlu” Cüdo İdman Klubuna və məşqçi Zakir Rəhimova 1 (bir) il müddətinə yarış və digər idman tədbirlərinin təşkil edilməsi və keçirilməsi qadağan edilsin.	07.09.2026	07.09.2027
15	Camal Feyziyev	İdmançı	Milli komanda	ACF Nizam İntizam Komitəsinin 27 oktyabr 2026-cı il tarixli, 15 saylı protokoluna əsasən 1. Azərbaycan Cüdo Federasiyasının müəyyən etdiyi daxili intizam qaydalarını dəfələrlə pozması və digər idman növləri üzrə yarışlarda/tədbirlərdə çıxış etməsi nəzərə alınaraq, böyüklərdən ibarət milli yığma komandanın üzvü Camal Feyziyevə 2 (iki) il müddətinə aşağıdakı məhdudiyyətlər tətbiq edilsin: • Azərbaycan Cüdo Federasiyasının təşkil etdiyi bütün yarışlarda iştirakına qadağa qoyulsun; • Milli komandaların məşqlərində iştirakına qadağa qoyulsun; • Milli komandaların tərkibində beynəlxalq yarışlarda iştirakına qadağa qoyulsun; • Beynəlxalq təlim-məşq toplanışlarında iştirakına qadağa qoyulsun.	27.10.2026	27.10.2028